# ŞƏHƏRLƏR VƏ REGIONLAR: UŞAQLARA QARŞI SEKSUAL ZORAKILIĞA SON QOYULMASI HAQQINDA PAKT

one in five
un sur cinq

Qiymətləndirmələrə əsasən, Avropada beş uşaqdan biri müəyyən formada seksual zorakılığın qurbanına çevrilir. Problemin miqyasını nəzərə alaraq, Avropa Şurası «**BEŞDƏN BİRİ**» kampaniyasına başlayıb, bunda məqsəd hər kəsin (uşaqların, valideynlərin və uşaqlarla işləyən şəxslərin) problem barədə məlumatlılığını artırmaqdan və Uşaqların seksual istismardan və nalayiq seksual hərəkətlərdən müdafiəsi haqqında Avropa Şurası Konvensiyasının (Lansarote Konvensiyasının) Avropa Şurasının üzvü olan 47 dövlət tərəfindən, eləcə də daha geniş miqyasda həyata keçirilməsini təşviq etməkdən ibarətdir.

Yerli və regional hakimiyyət orqanları konqressi Avropa Şurasının «**BEŞDƏN BİRİ**» kampaniyasına öz töhfəsini verərək Şəhərlərin və regionların uşaqlara qarşı seksual zorakılığa son qoyulması haqqında Paktını hazırlayıb və yerli və regional hakimiyyət orqanlarını, seçkili orqanların nümayəndələrini, eləcə də yerli və regional hakimiyyət orqanlarının milli assosiasiyalarını və digər təşkilatları kütləvi şəkildə bu sənədi imzalamağa çağırır.

The Congress
Le Congrès

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# «BEŞDƏN BİRİ» KAMPANIYASINDA IŞTIRAK

Şəhərlər və regionlar, yerli və regional orqanların seçkili nümayəndələri, eləcə də yerli və regional hakimiyyət orqanlarının assosiasiyaları və digər təşkilatlar «BEŞDƏN BİRİ» kampaniyasında iştirak etməyə və həyata keçirdikləri siyasət və təşəbbüsləri nümayiş etdirməyə dəvət olunurlar.

Milli hökumətlər kimi yerli və regional hakimiyyət orqanlarının mühüm vəzifəsi vətəndaşların insan hüquqlarını qorumaq və təşviq etməkdir və bu vəzifə onların ərazisində yaşayan uşaqların və gənclərin təhlükəsizliyinin və rifahının təmin olunmasını və təşviqini özündə ehtiva edir. Seksual zorakılığın və nalayiq seksual hərəkətlərin qurbanlarına yardım xidmətləri əsasən yerli səviyyədə göstərilir. Məhz bu səviyyədə görülən qabaqlayıcı və məlumatlandırıcı tədbirlər daha səmərəli ola bilər. Buna görə də yerli və regional hakimiyyət orqanları uşaqlar barəsində zorakılığa qarşı mübarizənin ön cərgəsindədirlər və belə halların araşdırılmasına və onların gələcəkdə baş verməsinin qarşısının alınmasına yönələn fəaliyyət planları və strategiyalar hazırlamalı və həyata keçirməlidirlər.

Avropa Şurasının Yerli və regional hakimiyyət orqanları konqressi Şəhərlərin və regionların uşaqlara qarşı seksual zorakılığa son qoyulması haqqında bu Paktını ona görə hazırlayıb ki, hakimiyyət orqanları seksual istismara və nalayiq seksual hərəkətlərə qarşı mübarizədə onu rəhbər tutsunlar. Bu sənəddə uşaqların tələbatlarına uyğunlaşdırılmış xidmətlərin göstərilməsi, cəmiyyətdə uşaqların seksual zorakılıqdan müdafiə edilməsi və belə halların qarşısının alınması məqsədi ilə yerli və regional səviyyələrdə həyata keçirilməli olan praktiki təşəbbüslər və siyasətlər sadalanır.

Bu təkliflər aşağıdakı dörd prinsipə əsaslanır: uşaqlara qarşı sui-istifadə hallarının qarşısının alınması, qurbanların müdafiəsi, hüquqpozanların məhkəmə qaydasında təqib olunması və bütün prosedurlarda uşaqların iştirak etməsi.

## Təşəbbüslərə aid bəzi nümunələr:

| | |
|---|---|
| TƏŞVIQ EDILMƏSI | «BEŞDƏN BİRİ» kampaniyasının yerli və regional səviyyədə təşviq edilməsi |
| ŞƏRATI YARADILMASI | Yardım xidmətlərindən istifadəyə şərati yaradılması |
| YARADILMASI | Çoxsahəli mərkəzlərin yaradılması |
| MƏLUMATLILIĞININ ARTIRILMASI | Məktəblərdə və digər müəssisələrdə uşaqların məlumatlılığının artırılması |
| KEÇILMƏSI | Uşaqlarla işləyən şəxslərə təlimlər keçilməsi |
| TƏŞKIL EDILMƏSI | Müzakirələrin və informasiya xarakterli görüşlərin təşkil edilməsi |
| ƏMƏKDAŞLIQ EDILMƏSI | QHT-lərlə, media ilə və özəl sektorla əməkdaşlıq edilməsi |
| YAYILMASI | Məlumatlandırıcı materialların yayılması |

# PAKTIN İNTERNET VASITƏSILƏ IMZALANMASI

İnformasiya mübadiləsinə şərait yaratmaq və yerli və regional hakimiyyət orqanlarının uşaqlara qarşı seksual zorakılığa son qoymağa yönələn səylərinin ümumavropa miqyasında təşviqini təmin etmək üçün İnternetdə xüsusi platforma işlənib hazırlanıb.

Platformaya fərdi çıxış imkanı yerli və regional hakimiyyət orqanlarının, seçkili nümayəndələrin və assosiasiyaların İnternetdə öz məlumatlarını yerləşdirmələrinə və təşəbbüslərini paylaşmalarına şərait yaradır. Beləliklə, onlar istifadəçinin tələbatlarına uyğunlaşdırılmış sayta malik olurlar ki, fəaliyyətlərini ümumavropa miqyasında təşviq etmək üçün fəaliyyətləri barədə məlumatları burada yerləşdirə bilərlər.







**1**

Bunun üçün İnternetdə profili seçmək (Local/Regional Authorities OR Associations/Organisations) və qeydiyyat formasını doldurmaq lazımdır, bunun ardınca avtomatik olaraq sizin qeydiyyat səhifəniz yaranmış olur və siz oraya e-mail ünvanınızdan ibarət istifadəçi adınızı (login) və parolunuzu daxil edirsiniz.




**2**

Bu səhifənin vasitəsilə siz təşəbbüsləriniz və fəaliyyətləriniz barədə məlumatları təqdim edirsiniz, sonradan həmin məlumatlar xüsusi saytda yerləşdirilir.

# LANSAROTE KONVENSIYASININ TƏŞVIQI

«BEŞDƏN BİRİ» kampaniyasında iştriak edən bütün maraqlı tərəflər Uşaqların seksual istismardan və nalayiq seksual hərəkətlərdən müdafiəsi haqqında Avropa Şurası Konvensiyasını (o, həmçinin «Lansarote Konvensiyası» adı ilə tanınır) öz milli hakimiyyət orqanları arasında təşviq etməyə dəvət olunurlar, bunda məqsəd bu hüquqi sənədin mümkün qədər çoxlu iştirakçılar tərəfindən imzalanmasına və ratifikasiyasına nail omaqdır.

PREMS 17014

AZE

Lansarote Konvensiyasının məqsədi bütün Avropa ölkələrində tətbiq edilməli olan aydın ümumi standartları və anlayışları müəyyən etməklə, konkret olaraq cinayət qanunvericiliklərinin uzlaşdırılması və digər müvafiq tədbirlər vasitəsilə, Avropada bu sahədə koordinasiyalı yanaşmanı və bütün uşaqların bərabər qaydada müdafiəsini təmin etməkdir.

Lansarote Konvensiyası 25 oktyabr 2007-ci ildə Lansarotedə (İspaniya) imzalanmaq üçün açıq elan olunub və 1 iyul 2010-cu ildə qüvvəyə minib. Onun müddəaları uşaqlara qarşı seksual zorakılığın və nalayiq seksual hərəkətlərin qarşısının alınmasına, seksual cinayətlərin qurbanı olan uşaqların müdafiəsinə və hüquqpozanların məsuliyyətə cəlb olunmasına yönəlib.

Uşaqların üstün maraqlarının təmin edilməsini ön plana çəkən bu Konvensiya aşağıdakı əsas aspektləri əhatə edir:

- qabaqlayıcı və qoruyucu tədbirlər;
- zərər çəkən uşaqlara və onların ailələrinə yardım;
- uşaqlara qarşı cinsi zəmində cinayət törədənlərə müvafiq proqramların və ya tədbirlərin tətbiqi;
- cinayət əməlləri, o cümlədən tamamilə yeni cinayətlər, məsələn, uşaqların «şirnikləndirilməsi»;
- istintaq və cinayət təqibi prosedurlarında uşaqların maraqlarının nəzərə alınması;
- cinsi cinayətlərə görə məhkum olunmuş şəxslərin qeydiyyatının aparılması və onlar barədə məlumatların mühafizəsi;
- beynəlxalq əməkdaşlıq;
- monitorinq mexanizmi.

Lansarote Konvensiyasl haqqında əlavə məlumat üçün bu sayta bax: www.coe.int/lanzarote

1949-cu ildə təsis edilmiş siyasi təşkilat olan Avropa Şurası qitə miqyasında demokratiyanın və insan hüquqlarının təşviqi üçün çalışır. Avropa Şurası həmçinin onun üzvü olan 47 dövlətdə sosial, mədəni və hüquqi problemlərin həlli üçün ümumi tədbirlər işləyib hazırlayır. Avropa Şurasının Yerli və regional hakimiyyət orqanları konqressi yerli və regional hakimiyyət orqanlarını təmsil edir və yerlərdə demokratiyanı təşviq edir. O, iki palatadan – Yerli hakimiyyət orqanları palatasından və Regionlar palatasından ibarətdir və Avropanın 200.000-dən artıq ərazi icmalarını təmsil edən 318 tam hüquqlu üzvü və 318 əvəzedici üzvü özündə birləşdirir.

CONGRESS OF LOCAL AND REGIONAL AUTHORITIES OF THE **COUNCIL OF EUROPE**
Avenue de l'Europe – F 67075 Strasbourg Cedex / Tel. : +33 (0)3 88 41 21 10 / Fax : +33 (0)3 88 41 37 47
**www.coe.int/congress-oneinfive – congress.oneinfive@coe.int**